Gürcüstan Prezidentinin mətbuat xidmətinin yaydığı məlumata görə, Prezident Georgi Marqvelaşvili ilə Türkiyə Prezidenti Abdullah Gül arasında telefon danışığı olmuşdur. Abdullah Gül Georgi Marqvelaşvilini prezident seçilməsi münasibətilə təbrik etmişdir. Tərəflər Gürcüstan-Türkiyə münasibətlərinin perspektivləri barədə fikir mübadiləsi aparmışlar. Prezident Abdullah Gül Gürcüstan dövlətinin başçısını Türkiyəyə səfərə dəvət etmişdir. Gürcüstan Prezidenti bu səfərin yaxın gələcəkdə baş tutacağını söyləmişdir.